# AZƏRBAYCAN RESPUBLİKASININ "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"in təsdiq edilməsi haqqında

06.09.2010

## NAZİRLƏR KABİNETİ
## QƏRAR
## № 161

**Bakı şəhəri, 6 sentyabr 2010-cu il**

## "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"in təsdiq edilməsi haqqında

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 275 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. "Fərdi məlumatların mühafizəsinə dair Tələblər" təsdiq edilsin (əlavə olunur).
2. Bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş "Fərdi məlumatların mühafizəsinə dair Tələblər"in icrasına nəzarət öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilsin.
3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.Rasi-zadə**